Azərbaycan Respublikasının Prezidenti yanında
Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının

# 2012-ci ildəki
# fəaliyyəti haqqında

# H E S A B A T

**Bakı 2012**

# MÜNDƏRİCAT

**Giriş ..........................................................................3**

**QHT-lərə göstərilən dövlət dəstəyinin əsas istiqamətləri**

- **Məlumat dəstəyi...................................................... 3**
- **Konsultativ dəstək ............................................ ........ 4**
- **Metodiki dəstək ...................................................... 5**
- **Təşkilati-texniki dəstək ..................................... ........ 5**
- **Maliyyə dəstəyi ................................................ ......... 6**

**Cari fəaliyyət**

- **Suraya seçkilər................................................. ........ 7**
- **QHT-lərin inkişafı üzrə Milli Fəaliyyət Proqramı .... 8**
- **Şuranın iclasları ....................................................... 9**
- **Digər tədbirlər .......................................................... 9**

**Beynəlxalq əlaqələr**

- **Görüşlər.................................................................. 12**
- **Səfərlər.................................................................... 13**
- **Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Ölkələri Qeyri-Hökumət Təşkilatlarının I Forumu... 14**
- **Tərəfdaşlıq.............................................................. 15**

**Yekun.......................................................................... 15**

## Giriş

Azərbaycanda dövlət və vətəndaş cəmiyyəti qurumları arasında münasibətlər uğurla inkişaf edir və bu münasibətlər artıq əməkdaşlıq mərhələsinə qədər yüksəlmişdir. Dövlət orqanları ilə qeyri-hökumət təşkilatları arasında müasir münasibətlər modelinin formalaşdırılması, sabit və effektiv tərəfdaşlıq sisteminin yaradılması Şuranın üzərinə düşən əsas vəzifələrdən biridir. Bu istiqamətdə Şura bir sıra məqsədyönlü tədbirlər həyata keçirmişdir. Ayrı-ayrı dövlət qurumlarının nəzdində milli QHT-lərin təmsilçiliyi ilə ictimai şuraların yaradılması dövlət qurumlarının işində şəffaflığın artırılmasında, korrupsiya ilə mübarizənin effektiv təşkilində və qəbul olunan qərarlarda vətəndaş iştirakçılığının təmin olunmasında böyük rol oynayır.

Azərbaycanda vətəndaş cəmiyyəti özünün dinamik inkişaf mərhələsini yaşayır. Ölkəmizin getdikcə artan siyasi nüfuzu və iqtisadi qüdrəti bütün ictimai qurumların, o cümlədən vətəndaş cəmiyyəti institutlarının da fəaliyyətinə böyük vüsət verir. Artıq beşinci ildir ki, ölkə QHT-lərinin layihə və proqramlarına dövlət büdcəsindən maliyyə yardımı ayrılır, bu qurumların bütün potensialı cəmiyyətimiz üçün mühüm əhəmiyyət kəsb edən ictimai, sosial, mədəni məsələlərin həllinə yönəldilir. Azərbaycan QHT-lərinin fəaliyyət imkanları genişlənir, onların beynəlxalq əməkdaşlıq əlaqələri möhkəmlənməkdə davam edir.

Konsepsiyada və Şuranın əsasnaməsində təsbit edilmiş dövlət dəstəyinin əsas prinsip və formalarına uyğun olaraq, 2012-ci ildə qeyri-hökumət təşkilatları ilə əməkdaşlıqda onların ən müxtəlif təşəbbüsləri dəstəklənmiş və ölkədə vətəndaş cəmiyyətinin inkişafı məqsədilə bir sıra tədbirlər həyata keçirilmişdir.

# QHT-lərə dövlət dəstəyinin əsas istiqamətləri

- ## Məlumat dəstəyi

Şuranın, eləcə də ölkə QHT-lərinin fəaliyyəti barədə ictimaiyyəti məlumatlandırmaq, qeyri-hökumət təşkilatlarının inkişaf dinamikasını, yerinə yetirilən layihələrin icra vəziyyətini və nəticələrini işıqlandırmaq məqsədilə Şuranın 2008-ci ildə təsis etdiyi aylıq **"Vətəndaş cəmiyyəti"** jurnalının nəşri uğurla davam etdirilmişdir. 2012-ci ildə jurnalın 12 nömrəsi işıq üzü görmüşdür. Jurnalın bu saylarında 400-ə yaxın QHT-nin həyata keçirdiyi layihə və proqramlar haqqında müfəssəl informasiya, məqalə və müsahibələr verilmiş, bütövlükdə ölkə QHT-lərinin fəaliyyəti izlənmiş və ictimai fəaliyyətlə bağlı vacib mövzular işıqlandırılmışdır.

QHT həyatına onlayn informasiya dəstəyinin verilməsi məqsədilə Şuranın hər gün yenilənən **"QHTXEBER.AZ"** saytı da il ərzində öz fəaliyyətini davam etdirmişdir. Saytda ölkənin ictimai sektoruna aid praktiki və nəzəri məsələlər işıqlandırılmışdır. Saytda QHT-lərin fəaliyyətini əks etdirən bütün növ xəbərlər, elanlar, hesabatlar yeni dizaynda yerləşdirilir, QHT qanunvericiliyi, donor fəaliyyəti, QHT-lərin koalisiya və beynəlxalq əməkdaşlığı haqqında materiallar ictimai müzakirəyə çıxarılır. Bundan başqa, Şura və onun fəaliyyəti haqqında ətraflı məlumat əldə etmək üçün təşkilatın Azərbaycan və ingilis dillərində rəsmi saytı (www.cssn.gov.az) fəaliyyət göstərir. İl ərzində Şuranın fəaliyyəti və keçirdiyi ayrı-ayrı tədbirlər haqqında mətbuata 100-ə yaxın press-reliz göndərilmişdir.

Şura təmsilçilərinin və QHT nümayəndələrinin iştirakı ilə il ərzində İctimai Televiziyanın "Çarpaz baxış" proqramında "QHT-lər və ictimai maraqlar", "Korrupsiya ilə mübarizədə QHT-lərin üzərinə düşən vəzifələr", "QHT-lər və milli maraqlar" mövzusunda televiziya proqramları hazırlanaraq efirə verilmişdir. Bununla yanaşı Şuranın həyata keçirdiyi bütün tədbirlər barədə çap və elektron mediada məlumatlar verilmiş və həmin tədbirlər televiziyalar tərəfindən işıqlandırılmışdır.

- ## Konsultativ dəstək

Şura Katibliyi 2012-ci ilin 1-ci maliyyə yardımı müsabiqəsi çərçivəsində maliyyələşən layihələrin həyata keçirilməsinin effektivliyinin artırılması məqsədilə layihə rəhbərləri və mühasibləri üçün layihələrin idarə olunması və hesabatların təqdim edilməsi mövzularında məlumatlandırma sessiyaları keçirmişdir. Aprelin 18-dən 27-dək davam edən bu məlumatlandırma sessiyalarında layihələrin maliyyələşdirildiyi bütün istiqamətlər əhatə edilmişdir.

Layihə rəhbərləri üçün keçirilən sessiyalarda Şura katibliyinin həmin layihələrin icrasına nəzarəti həyata keçirən əməkdaşları layihələrin idarə edilməsi, hesabatlılıq, tədbirlərin effektivliyinin artırılması barədə məlumatlar vermişlər.

Ölkənin regionlarında fəaliyyət göstərən və Şuranın maliyyə yardımı ilə layihə həyata keçirilən QHT-lər üçün də məlumatlandırma sesiyaları təşkil edilmişdir. Aprelin 30-dan mayın 15-dək davam edən bu təlimlər regionlarda fəaliyyət göstərən QHT Resurs və Təlim Mərkəzlərində təşkil olunmuşdur. Gəncə, Şirvan, Qəbələ, Mingəçevir və Qubada keçirilən təlimlərdə 321 QHT nümayəndəsi iştirak etmişdir.

«Mühasibat uçotu haqqında» Azərbaycan Respublikası Qanununun 13.2-ci maddəsinə uyğun olaraq, qeyri-hökumət təşkilatları 2010-cu ildən etibarən Qeyri-Hökumət Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun tərtib edilmiş formada illik maliyyə hesabatı hazırlamalı və aprel ayının 1-dək Maliyyə Nazirliyinə təqdim etməlidirlər. Hesabatı vaxtında təqdim etməyənlər və ya səhv hesabat təqdim edənlər üçün Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 247-1-ci maddəsi ilə yüksək cərimə sanksiyaları müəyyənləşdirilmişdir. Ötən ildə olduğu kimi, 2012-ci ildə də Şura göstərilən qanunun icrasına, habelə QHT-lərin bu sahədə üzləşdiyi çətinliklərin aradan qaldırılmasına yardım məqsədilə hesabatların tərtibi və təqdim edilməsilə bağlı məsləhət saatları və seminarlar təşkil etmişdir.

13 iyul 2012-ci ildə Şuranın 2012-ci il növbəti maliyyə yardımı müsabiqəsilə bağlı məlumatlandırma sessiyası keçirilmişdir. Sessiyada tədbir iştirakçılarını maraqlandıran suallar da ətraflı cavablandırılmışdır.

14 dekabr 2012-ci ildə Şura 2013-cü ildə QHT layihələrinin maliyyələşdirilməsi üçün elan etdiyi müsabiqə ilə bağlı Beynəlxalq Mətbuat Mərkəzində məlumatlandırma sessiyası keçirmişdir. Sessiyada QHT nümayəndələrinə maliyyə yardımı müsabiqəsinin istiqamətləri, mövzuları, şərtləri və zəruri sənədləri haqqında ətraflı məlumat verilmişdir.

İl ərzində maliyyə və proqram hesabatlarının hazırlanması, layihələrin idarə olunması, layihə çərçivəsində tədbirlərin təşkili ilə əlaqədar Şuranın maliyyə yardımı göstərdiyi QHT-lərin nümayəndələrinə məsləhət xidməti təşkil edilmişdir. İl ərzində 250-dən çox QHT-yə bu sahədə xidmət göstərilib.

- ## Metodiki dəstək

QHT sektorunun institusional inkişafının təmin olunması üçün geniş maarifləndirmə işlərinin aparılması vacibdir. QHT idarəçiliyinin qanuna müvafiq və beynəlxalq standartlara uyğun təşkili ilə bağlı xüsusi nəşrlərin hazırlanması daim Şuranın gündəmində olmuşdur. Şura QHT-lərə bu sahədə daha yaxşı xidmətin təşkili, QHT-lərin Şura ilə çevik əlaqələrinin qurulması və bu əlaqələrin müasir tələblər səviyyəsinə çatdırmaq üçün bir sıra elektron resurslar hazırlamışdır. İlk növbədə QHT-lər haqda Məlumat Bazası və QHT-lərin öz layihə və proqramlarını elektron qaydada təqdim etməsi üçün xüsusi proqramlar hazırlanmışdır. Bununla yanaşı QHT-lərin həyata keçirdiyi layihələrinin hesabatlarını Şuraya elektron qaydada təqdim olunması üzərində iş

aparılır. QHT-lərin bu xidmətdən istifadəsinə kömək məqsədilə Şura tərəfindən elektron hesabatın təqdim edilməsi ilə bağlı metodik göstərişlər hazırlanmışdır.

## • Təşkilati-texniki dəstək

QHT fəaliyyətinin qanunvericiliyə və beynəlxalq standartlara uyğun şəkildə qurulması, QHT təmsilçilərinin idarəçilik qabiliyyətinin artırılması, QHT-lərdə kargüzarlıq işlərinin və mühasibat uçotunun qanunun tələblərinə uyğun aparılması, bu sahədə milli QHT-lərin bilik və bacarıqlarının artırılması Şuranın qarşısında duran başlıca vəzifələrdən biridir. Bu məqsədlə QHT sektorunun gələcək inkişafına hesablanmış bir sıra mühüm tədbirlər həyata keçirilmişdir.

Ölkəmizdə həyata keçirilən elektron hökumət layihəsinə töhfə vermək və bununla öz fəaliyyətində şəffaflığı daha da artırmaq məqsədilə Şura 2013-cü ilin maliyyə yardımı müsabiqəsinə QHT layihələrini elektron formada qəbul etmək haqqında qərar qəbul etmişdir. Layihə təkliflərinin elektron formada qəbul edilməsi QHT-lərin vaxta qənaət etməsilə yanaşı, həm də onlara imkan verəcək ki, müsabiqələrə ayrı-ayrı istiqamətlər üzrə daxil olmuş layihələrin sayı, onların hərəkəti və ekspert qiymətləndirməsi haqda operativ məlumatları internet resursları vasitəsilə əldə edə bilsinlər. Bu məqsədlə elektron xidmətlər üzrə proqramların hazırlanması sahəsində ixtisaslaşmış şirkətlərin nümayəndələri ilə görüş keçirərək Şuranın elektron xidmət imkanları geniş müzakirə edilmişdir. İlkin olaraq "QHT məlumat bazası"nın proqramının hazırlanmasına başlanılmışdır. Bu proqram həmçinin QHT-lərin öz layihə təkliflərini elektron qaydada Şuraya təqdim etməsini də təmin edəcəkdir.

Şura QHT-lərin illik maliyyə hesabatlarının sadələşdirilməsi və təkmilləşdirilməsilə bağlı Maliyyə Nazirliyi qarşısında aşağıdakı təkliflərlə çıxış etmişdir:

- qeyri-hökumət təşkilatları üzrə illik maliyyə hesabatlarının komponentlərinə daxil edilən formaların sadələşdirilməsi;
- maliyyə hesabatlarının təqdim olunması zamanı QHT-lərin illik maliyyə dövriyyəsinə görə təsnifatlandırılması;
- illik dövriyyəsi 10 min manata qədər olan QHT-lərin illik maliyyə hesabatı təqdim etməkdən azad edilməsi;
- hesabatların elektron qaydada verilməsi;

QHT-lərdə Milli Mühasibat Uçotu Standartlarının müasir tələblərə uyğun tətbiqi sahəsində Şura yeni layihə icrasına başlamışdır. 3 sentyabr tarixdən fəaliyyətə başlayan bu layihəyə əsasən 200 QHT-yə "Günəş" mühasibat uçotu kompyuter proqramının öyrədilməsi və onlardan yarısının proqramla təmin edilməsi nəzərdə tutmuşdur. Layihə çərçivəsində 5 nəfəri regionlardan olmaqla, 10 nəfər mühasibin təlimçi kimi hazırlanmışdır. Təlimçilərin öyrədilməsi "Günəş Sistemi" proqramlar paketinin müəllifi olan "LİNK&A" MMC-nin əməkdaşları tərəfindən həyata keçirilmişdir. Hazırlanmış təlimçilər öz biliklərini Şura tərəfindən təşkil edilmiş kurslarda QHT mühasiblərinə öyrətmişlər. Kurslar Bakıda Milli QHT Forumunun ofisində, regionlarda isə Milli QHT Forumunun Quba, Şirvan, Şəmkir, Qəbələ və Mingəçevir RQRTM-lərinin ofislərində təşkil edilmişdir. İl ərzində 200 QHT nümayəndəsinə "Günəş" mühasibat uçotu kompüter proqramının istifadə qaydaları tədris edilmiş və 45 QHT həmin proqramlarla pulsuz təmin edilmişdir. Kursda iştirak etmiş digər QHT-lərin də proqramla təmin edilməsi davam etdirilir.

**14 sentyabr 2012-ci ildə** Mingəçevir şəhərində ətraf 24 rayon QHT nümayəndələrinin iştirakı ilə təlim keçirilmişdir. QHT-lərin dayanıqlığı mövzusunda keçilən təlimdə QHT fəaliyyətinin müxtəlif aspektləri, o cümlədən maliyyələşmə və hesabatlılıq məsələləri ətrafında müzakirələr aparılmışdır.

- ## Maliyyə dəstəyi

İl ərzində Şura QHT layihələrinin maliyyələşdirilməsi üçün iki dəfə müsabiqə elan etmişdir. Şura 2012-ci ilin birinci maliyyə yardımı müsabiqəsi nəticələrinin müzakirəsini martın 14-də keçirilən iclasında yekun vurulmuşdur.

30 dekabr 2011-ci ildə elan edilmiş maliyyə yardımı müsabiqəsinə ümumilikdə 541 QHT-dən layihə təklifi daxil olmuşdur. Onlardan 73-nün texniki sənədləşməsi Şuranın tələblərinə cavab vermədiyi üçün ilkin seleksiya mərhələsində müsabiqədən kənarlaşdırılmış, 468 layihə təklifi ekspertizaya göndərilmişdir. Şura ekspert rəylərini və QHT-lərin əvvəlki illərdə həyata keçirdiyi layihələrin icra vəziyyəti haqqında Katibliyin hazırladığı arayışları nəzərə alaraq, 265 layihənin maliyyələşdirilməsi barədə qərar qəbul etmişdir.

22 iyun 2012-ci ildə Şura növbəti maliyyə yardımı müsabiqəsi elan etdi. Müsabiqənin mövzusu ictimai əhəmiyyət kəsb edən məsələlərlə əlaqədar televiziya və radio verilişlərinin hazırlanması, ictimai müzakirələrin və debatların təşkil edilməsindən ibarət olmuşdur**.** Ərizələr 02 iyul tarixdən 27 iyul 2012-ci il tarixədək qəbul edilmişdir.

11 sentyabr 2012-ci il də Şura ikinci maliyyə yardımı müsabiqəsinə yekun vurdu. Müsabiqəyə ümumilikdə 157 QHT-dən layihə təklifi daxil olmuşdur. Onlardan 32-nin texniki sənədləşməsi Şuranın tələblərinə cavab vermədiyi üçün ilkin seleksiya mərhələsində müsabiqədən kənarlaşdırılmış, 125 layihə təklifi ekspertizaya göndərilmişdir. Şura ekspert rəylərini və QHT-lərin əvvəlki illərdə həyata keçirdiyi layihələrin icra vəziyyəti haqqında Katibliyin hazırladığı arayışları nəzərə alaraq, 56 layihənin maliyyələşdirilməsi barədə qərar qəbul etdi. Müsabiqə qaliblərinin siyahısı Şuranın www.qhtxeber.az saytında yerləşdirilmişdir.

2012-cu ilin maliyyə yardımının istiqamətləri, müsabiqə fondu, maliyyələşən layihələrin sayı barədə məlumatlar aşağıdakı cədvəldə verilmişdir:

| N | Müsabiqənin istiqamətləri | Şuranın ayırdığı məbləğ | Maliyyələşən layihələrin sayı |
|---|---|---|---|
| 1 | İnsan hüquqları və demokratiya məsələlərinə dair təşəbbüslər | 178 410,0 | 22 |
| 2 | Azərbaycanın təbliği və ərazi bütövlüyünün bərpası ilə bağlı xarici ölkələrdə tədbirlərin təşkili | 105 000,0 | 18 |
| 3 | Təhsil və mədəniyyətin inkişafına ictimai dəstək | 293 000,0 | 48 |
| 4 | “Eurovision-2012” mahnı müsabiqəsilə bağlı keçirilən tədbirlərə ictimai dəstək | 45 000,0 | 7 |
| 5 | Ətraf mühitin mühafizəsi və sağlamlığın qorunması istiqamətində təşəbbüslər | 174 900,0 | 28 |
| 6 | Qadın, uşaq və gənclərin inkişafına, ailə institutunun möhkəmlənməsinə ictimai dəstək | 223 500,0 | 35 |
| 7 | Korrupsiya, insan alveri, narkomaniya və terrorizmlə mübarizəyə həsr olunmuş təşəbbüslərə dəstək | 150 049,0 | 23 |
| 8 | Region QHT-lərinin təşəbbüslərinə dəstək | 270 500,0 | 44 |
| 9 | Sosial problemlərin həllinə ictimai dəstək | 305 300,0 | 42 |
| 10 | Müharibədən zərər çəkənlərin sosial problemlərinin həllinə dəstək | 56 000,0 | 9 |
| 11 | Televiziya və radio verilişlərinin hazırlanması, ictimai müzakirələrin və debatların təşkil edilməsi | 189 500,0 | 56 |
| 12 | QHT-lərin xarici ölkələrdə keçirilən tədbirlərdə iştirakına dəstək | 39 841,0 | 16 |
| | | **2 031 000,0** | **348** |




Şuranın maliyyə yardımı müsabiqəsinin nətəicələri elan olunduqdan sonra Şura Katibliytyinə 10 QHT-dən layihələrin nəticələrini araşdırmaq üçün müraciətlər daxil olmuşdur. 09 aprel 2012-ci ildə Şuranın Apelyasiya Komissiyasının iclası olmuş və iclasda 2012-ci il maliyyə müsabiqəsinin nəticələrilə razılaşmayan 10 QHT-nin şikayəti araşdırılmışdır. Komissiyaya müraciət etmiş 10 təşkilatdan aşağıdakı 7 QHT iclasa gəldiyi üçün yalnız onların şikayəti araşdırılmışdır:

1. Azərbaycandan Kənarda Təhsil Almış Mütəxəssislər Təşkilatı
2. Kitab Yayımı İşinin İnkişafına Dəstək İctimai Birliyi
3. Helsinki Vətəndaş Assambleyası Azərbaycan Milli Komitəsi
4. Cəza Çəkmiş Qadınların Cəmiyyətə Qayıdışı İctimai Birliyi
5. Azərbaycan Respublikası Əlillər Cəmiyyəti
6. Azərbaycan Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr Veteranları Təşkilatı
7. Ahıl, Tənhavə Əlil İnsanlara Yardın İctimai Birliyi

Demokratik, şəffaf, qarşılıqlı anlaşma və diskussiya şəraitində keçən müzakirələrdə komissiya üzvləri QHT rəhbərlərinə onların layihələrindəki qüsur və çatışmazlıqları göstərərək, hər bir şikayət üzrə ayrılıqda qərar qəbul etdilər. Komissiya yuxarıdakı siyahıda adları çəkilən 7 QHT-nin təqdim etdiyi layihələrin maliyyələşdirilməməsi haqda Şuranın əvvəlki qərarını qüvvədə saxlamışdır.

## Cari fəaliyyət

- ### Şuraya seçkilər

"Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası haqqında Əsasnamə"nin 3.6-cı bəndinə uyğun olaraq, Şura üzvlüyünə yeni namizədlərin irəli sürülməsini təmin etmək üçün 30 yanvar 2012-ci ildə Şura Katibliyi tərəfindən QHT-lər arasında elan yayımlanmışdır. Elanda 2012-ci ilin fevral ayı ərzində insan hüquqları və

demokratiya, ailə, qadın və uşaq məsələləri, qaçqın, köçkün, əlil və veteranların məsələləri, iqtisadi və sosial məsələlər, təhsil, elm və mədəniyyət, gənclər və vətənpərvərlik tərbiyəsi, səhiyyə, sağlamlıq və ekologiya, narkomaniyaya, korrupsiyaya, insan alverinə və terrorizmə qarşı mübarizə üzrə ixtisaslaşmış QHT qruplarının yığıncaqları barədə, həmçinin ərizələrin təqdim edilmə qaydaları barədə məlumatlar verilmişdir.

Şura üzvlüyünə seçkilərdə namizədlərin irəli sürülməsini təmin etmək üçün 31 yanvar-17 fevral 2012-ci il tarixlərində Şuranın dərc etdiyi elanla əlaqədar QHT-lərdən ərizələrin qəbulu həyata keçirilmişdir. İxtisaslaşmış QHT qrupları üzrə Şura üzvlüyünə 63 namizəd və iclaslarda iştirak üçün 568 QHT qeydə alınmışdır. Seçkilər Azərbaycan Dövlət Pedaqoji Universitetinin akt zalında media üçün açıq şəraitdə, beynəlxalq və yerli QHT nümayəndələrinin müşahidəçiliyi ilə keçmişdir.

Şuranın Əsasnaməsinə görə 11 Şura üzvü, 8-i QHT nümayəndələrindən, 3-ü isə müxtəlif dövlət qurumlarının təmsilçilərindən ibarət olmaqla, ölkə prezidenti tərəfindən təyin edilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 23 aprel 2012-ci il tarixli sərəncamı ilə aşağıdakı şəxslər Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının üzvü təyin olunmuşdur:

Quliyev Azay Əjdər oğlu – Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun nümayəndəsi;

Süleymanov Tahir Veys oğlu - Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini;

Məcidli Vüqar Sabir oğlu - Azərbaycan Respublikası Maliyyə Nazirliyi sosial sahələrin maliyyəsi şöbəsinin müdir müavini;

Məmmədov İlqar Kamil oğlu - Azərbaycan Respublikası Ədliyyə Nazirliyi qeydiyyat və notariat baş idarəsinin rəisi;

Məmmədov Sahib Məlik oğlu – Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası İcraiyyə Komitəsinin sədri;

Mirzəzadə Rəna Rza qızı – Günder və İnsan Hüququ Araşdırma Birliyinin sədri;

Qədirov Vüqar Kərim oğlu – Azərbaycan Qaçqın və Məcburi Köçkün Gənclər Təşkilatının sədri;

Vəliyeva Dilarə Hətəm qızı – “Mülk” İctimai Assosiasiyasının prezidenti;

İsmayılov Şahin Əmir oğlu – Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri;

Hüseynova Gülnarə Alxas qızı – Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının prezidenti;

Nuriyev Əliməmməd Mali oğlu – “Konstitusiya” Araşdırmalar Fondunun prezidenti;

- **QHT-lərin İnkişafı üzrə Milli Fəaliyyət Proqramı**

Azərbaycan Respublikasının sürətli sosial-iqtisadi və mədəni inkişafına ictimai dəstəyi daha da gücləndirmək, ölkədə vətəndaş cəmiyyətinin inkişafına layiqli töhfələr vermək məqsədilə QHT-lərin inkişafı üzrə ayrıca fəaliyyət proqramının hazırlanmasına böyük ehtiyac yaranmışdır. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ölkə QHT-lərinin inkişafı üzrə Milli Fəaliyyət Proqramının hazırlanması üçün təcrübəli QHT ekspertlərindən ibarət işçi qrup yaratmışdır.

Şura sədri Azay Quliyevin sədrliyi ilə işçi qrupun 3 iclası keçirilmişdir. 25 may 2012-ci ildə keçirilən iclasda çıxış edən ekspertlər hazırlanacaq sənədin QHT qanunvericiliyinin təkmilləşdirilməsi, tədris və məlumatlandırma işinin daha effektiv təşkili, QHT-lərin faydalılıq əmsalı üzrə təsnifatlandırılması, region QHT-lərinin potensialının gücləndirilməsi, dövlət-QHT-

biznes əməkdaşlığı və digər məsələlərin sənəddə öz əksini tapması ilkin variant olaraq irəli sürdülər. İşçi Qrupun 12 sentyabr 2012-ci ildə keçirilən iclasda ilkin olaraq hazırlamış Proqramın əsas layihə müddəalarının ayrı-ayrı sahələr üzrə işlənərək təkmilləşdirilməsi üçün işçi qrup üzvləri arasında konkret iş bölgüsü aparılmışdır. Sonuncu 24 oktyabr 2012-ci ildə keçirilən iclasda isə "QHT-lərin İnkişafı üzrə Milli Fəaliyyət Proqramı"nın layihəsi işçi qrup tərəfindən bir daha müzakirə edildi. İşçi qrupun üzvləri Milli Fəaliyyət Proqramı ilə bağlı öz fikir və təkliflərini bir daha ümumiləşdirərək, sənəd üzərində işin davam etdirilməsi və göstərilən müddəaların konkret bölmələr üzrə təsnifatını təkmilləşdirərək növbəti ildə ictimai müzakirəyə təqdim olunması barədə qərar qəbul etdilər.

## • Şuranın iclasları

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası haqqında Əsasnamənin 4.7 bəndinə müvafiq olaraq Şura mütəmadi şəkildə öz iclaslarını keçirmişdir. 2012-ci ildə Şuranın 14 iclası olmuşdur. Bu iclaslarda Şuranın fəaliyyətinin səmərəli təşkili, maliyyə yardımı müsabiqələrinin keçirilməsi, müsabiqə nəticələrinin müzakirəsi, Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyasından irəli gələn digər məsələlər müzakirə edilmiş və müvafiq qərarlar qəbul edilmişdir.

02 may 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yeni təyin edilmiş heyətinin ilk iclası keçirildi. Bütün üzvlərin iştirak etdiyi iclasda təşkilati məsələlərə baxıldı. Yenidən dörd il müddətinə yekdilliklə Azay Quliyev Şuranın sədri, Tahir Süleymanov Şura sədrinin müavini, Vüqar Məcidli Şuranın katibi seçildi. Şura üzvləri ölkə rəhbərliyi tərəfindən onlara göstərilmiş yüksək etimada görə Prezident İlham Əliyevə təşəkkür məktubu ünvanlamaq haqqında qərar qəbul etdilər.

## • Digər tədbirlər

25 yanvar 2012-ci ildə Şura ötən ilin yekunlarına dair hesabat konfransı keçirdi. Beynəlxalq Mətbuat Mərkəzində milli QHT-lərin, beynəlxalq təşkilatların və KİV nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə Şuranın 2011-ci il fəaliyyəti haqda ictimaiyyətə məlumatlar verilmiş və Şuranın maliyyə dəstəyi ilə həyata keçirilən layihələrin nəticələri geniş müzakirə edilmişdir. Şuranın 2011-ci ildə maliyyələşdirdiyi layihələrə dair çap olunmuş kitab iştirakçılar arasında paylanmışdır. Tədbirdə, həmçinin, Fransa Respublikası Senatının ölkədə qondarma erməni soyqırımını inkar edənlərin cəzalandırılmasına dair 23 yanvar 2012-ci ildə qəbul etdiyi qanun müzakirə edilərək, mahiyyətcə antidemokratik, beynəlxalq hüquqa zidd bir sənəd kimi qiymətləndirildi və bununla bağlı etiraz bəyanatı qəbul edildi.

02 may 2012-ci il də Şura Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması İctimai Birliyinin ofisində Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsinin 20 illiyilə əlaqədar ölkə QHT-lərinin toplantısını keçirmişdir. Tədbirdə çıxış edən millət vəkilləri və Şuşanın işğalı ilə bağlı beynəlxalq aləmdə görülməsi vacib olan işlərdən və bu yöndə QHT-lərin qarşısında duran vəzifələrdən danışdılar. Onlar "Şuşaya azadlıq!" kampaniyasına başlamağın vaxtının çatdığını bildirdilər. Tədbirdə Şuranın maliyyə dəstəyilə Avrasiya Beynəlxalq Araşdırmalar İnstitutu İctimai Birliyinin Azərbaycanın mədəniyyət mərkəzi və musiqi beşiyi olan Şuşanın işğalı ilə bağlı çəkdiyi sənədli film nümayiş etdirildi, beynəlxalq təşkilatlara və dünya ictimaiyyətinə ünvanlanmış bəyanat qəbul edildi.

15 may 2012-ci ildə Beynəlxalq Mətbuat Mərkəzində Şuranın vəsaiti hesabına çap edilmiş "Laçın: həqiqətlər, mülahizələr, tarixi dəyərlər" kitabının təqdimat mərasimi keçirildi. Mərasim Laçın rayonunun Ermənistan hərbi birləşmələri tərəfindən işğal edilməsinin 20 illiyinə həsr olunmuşdu. Tədbirdə işğalda olan torpaqlarımızın, o cümlədən Laçın rayonunun Azərbaycan üçün böyük itki olduğunu bildirdi. Qeyd edildi ki, bu iyirmi ili Azərbaycan yalnız Ermənistanla danışıqlar prosesinə sərf etməyib, həm də torpaqlarımızın azadlığı uğrunda vuruşmağa qadir olan qüdrətli ordunun yaradılmasına nail olub və ali baş komandanın əmrilə bu ordu bütün Azərbaycan xalqı ilə birlikdə işğalçı düşməni öz yerində oturtmağa hazırdır. Tədbirdə çıxış edən Laçın rayon ictimaiyyəti və QHT nümayəndələri işğal edilmiş torpaqlarla bağlı ölkədə təbliğatın daha da gücləndirilməsinin, torpaqlarımızın azad edilməsi üçün dövlətinizə və ordumuza hər cür köməklik göstərilməsinin vacibliyini vurğuladılar.

30 may 2012-ci ildə Şura "Avroviziya-2012" ilə bağlı maliyyələşdirdiyi QHT layihələrinin yekunlarına həsr olunmuş toplantı keçirdi. Toplantını Şura sədri açaraq, bütün Avropa mədəniyyəti və ölkəmiz üçün böyük əhəmiyyət daşıyan "Avroviziya-2012" Mahnı Müsabiqəsinin Azərbaycanda uğurla keçməsində Cənab Prezident İlham Əliyevin və təşkilat komitəsinin sədri, ölkəmizin Birinci xanımı Mehriban Əliyevanın böyük zəhməti olduğunu diqqətə çatdırdı. Şura sədri bildirdi ki, "Avroviziya-2012" Mahnı Müsabiqəsi çərçivəsində həyata keçirilən tədbirlərə ictimai dəstəyin verilməsi üçün Şura maliyyələşdirdiyi layihələrə 50000 manata yaxın vəsait ayırmışdı. Toplantıda çıxış edən QHT rəhbərləri layihələrin icrası və "Avroviziya-2012" Mahnı Müsabiqəsi ilə bağlı həyata keçirdikləri tədbirlərdən danışdılar. Toplantıda "Avroviziya-2012" Mahnı Müsabiqəsinin ölkəmizdə uğurla keçirilməsilə bağlı Prezident İlham Əliyevə müraciət qəbul edilmişdir.

31 may 2012-ci ildə Şura Milli QHT Forumu ilə birlikdə "Vətəndaş cəmiyyətinin inkişafında QHT-lərin rolu" mövzusunda konfrans keçirdi. Konfransı açan Şura sədri ölkədə vətəndaş cəmiyyətinin inkişafına göstərilən dövlət qayğısından danışaraq, QHT-lərin fəaliyyətinin səmərəsinin artırılması, beynəlxalq əlaqələrinin genişləndirilməsi və dövlət orqanları ilə əməkdaşlığının möhkəmləndirilməsi kimi məsələlər ətrafında müzakirələrin davam etdirilməsinin vacibliyini bildirdi. Tədbirdə ölkədə uğurla keçirilmiş "Avroviziya-2012" tədbirlərinə ictimai dəstəyin verilməsində bir sıra QHT-lərin fəal iştirakı qeyd edilmiş və Azərbaycan həqiqətlərinin dünyada daha geniş təbliğ olunması üçün QHT-hökumət tərəfdaşlığının mühüm əhəmiyyət kəsb etdiyi bildirilmişdir. Konfransda əsas məruzə ilə çıxış edən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov dövlət müstəqilliyi illərində ölkə QHT-lərinin keçdiyi yola nəzər salaraq inkişafın müxtəlif mərhələlərini şərh etdi. QHT-hökumət münasibətlərinə toxunan Ə.Həsənov vətəndaş cəmiyyəti institutlarının müstəqilliyinə dövlət tərəfindən hörmətlə yanaşıldığını və onların fəaliyyətinə dövlət dəstəyinin daim artırıldığını diqqətə çatdırdı. Prezident Administrasiyasının rəsmisi qeyd etdi ki, hökumət artıq QHT-lərə yalnız tərəfdaş kimi deyil, həm də ölkənin inkişafı sahəsində həyata keçirilən layihələrin icraçılarından biri kimi baxır. "Avroviziya-2012" Mahnı Müsabiqəsi keçirilən günlərdə radikal müxalifət düşərgəsinə mənsub bəzi qruplaşmaların ölkəmizə səfər etmiş Qərb jurnalistləri və çoxsaylı qonaqlar arasında Azərbaycanın mənfi obrazını yaratmaq cəhdlərini qəti şəkildə pisləyən Ə.Həsənov belə halların yolverilməzliyini və bu yolla müxalifətin heç nəyə nail ola bilməyəcəyini bildirdi. Tədbirdə çıxış edən millət vəkilləri və QHT rəhbərləri müzakirə olunan məsələlərə münasibət bildirərək, QHT-lərin fəaliyyətinin daha da təkmilləşdirilməsi ilə bağlı təkliflər irəli sürdülər. Konfransda Avropa Parlamentinin 24 may 2012-ci ildə qəbul etdiyi "İnsan hüquqları, demokratiya və hüququn aliliyinin pozulmasına dair" qətnamə, habelə "Human Rights Watch", "Amnesty İnternational", Norveç İnsan Haqları Evi, Sərhədsiz Reportyorlar Təşkilatı kimi beynəlxalq qurumların Azərbaycan haqqında yaydığı qeyri-obyektiv açıqlamalarla bağlı bəyanatlar qəbul edildi.

22 iyun 2012-ci ildə “Azərbaycanda korporativ sosial məsuliyyət: reallıqlar və perspektivlər” mövzusunda konfrans keçirdi. Konfransda korporativ sosial məsuliyyətlə bağlı ölkədə mövcud olan durum və onun perspektivləri müzakirə edildi. Konfrans 240-dan artıq yerli və xarici biznes qurumunun daxil olduğu Amerika Ticarət Palatasının (AMCHAM) informasiya dəstəyi ilə həyata keçirildi.

02 iyul 2012-ci ildə Şura “Vətəndaş cəmiyyətinin möhkəmləndirilməsində QHT-hökumət dialoqu” mövzusunda tədbir keçirmişdir. Tədbirdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov iştirak etmişdir. Ölkənin ən fəal və aparıcı QHT-lərinin iştirakı ilə keçiriləm tədbirdə QHT sektoruna aid olan bütün məsələlər geniş müzakirə edilmiş və onların həlli üçün təkliflər səsləndirilmişdir.

26 sentyabr 2012-ci ildə Şura Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyət istiqamətləri, Açıq Hökumətin təşviqi və Korrupsiyaya qarşı mübarizəyə dair Milli Fəaliyyət Planlarının ictimai müzakirələrini keçirdi. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov Dövlət Agentliyinin fəaliyyət istiqamətləri, eləcə də bununla əlaqədar olaraq bütün ölkədə yaradılacaq Asan Xidmət Mərkəzlərinin işi barədə təqdimatla çıxış etdi. Açıq Hökumətin təşviqinə və Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illərin Milli Fəaliyyət Planlarından irəli gələn vəzifələr və vətəndaş cəmiyyətinin bu proseslərdə iştirakı ilə bağlı Azərbaycan Respublikasının Korrupsiyaya Qarşı Mübarizə Komissiyasının nümayəndəsi Vüsal Hüseynov təqdimat etdi.

11 dekabr 2012-ci ildə Şura Ulu öndər Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş “Günəşə qovuşmaq istəyirəm mən” kitabının elektron disk formatında təqdimatını keçirmişdir. Tədbir Bakı şəhəri Yasamal rayonu 20 saylı orta məktəbdə keçirildi. Təqdim olunan audiodiskdə Azərbaycanın tanınmış 9 şairinin Heydər Əliyev dühasını və şəxsiyyətini tərənnüm edən serləri toplanmış və onlar bədii qiraət ustası, əməkdar artist Azad Şükürov tərəfindən səsləndirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nda “İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya”nın və onun Fakültativ Protokolunun tələblərinin hüquq mühafizə orqanlarının, digər aidiyyəti qurumların əməkdaşları, habelə vəkillər və hüquq sahəsində ixtisaslaşan qeyri-hökumət təşkilatlarının nümayəndələri tərəfindən öyrənilməsi işinin təşkil olunması”nı həyata keçirən icra oqranlarında Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası da göstərilmişdir. Bundan irəli gələrək 14 dekabr 2012-ci ildə Şura “İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının icrası ilə bağlı QHT-lərin üzərinə düşən vəzifələr” mövzusunda seminar keçirmişdir.

“Park-İnn” hotelində keçirilən tədbirdə “İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya”nın və onun Fakültativ Protokolunun tələbləri ilə bağlı QHT rəhbərlərinə geniş məlumat verildi. İşgəncə və digər qeyri-insani rəftara qarşı mübarizədə beynəlxalq standartlar və mexanizmlər, BMT-nin işgəncə üzrə və digər insanı, ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə konvensiyasının müddəaları ilə bağlı məruzə ilə “Konstitusiya” Araşdırmalar Fondunun prezidenti, Şuranın üzvü Əliməmməd Nuriyev çıxış etdi. Ə.Nuriyev BMT Konvensiyası müddəalarının Azərbaycan qanunvericiliyində təsbit olunması, saxlama, azadlıqdan məhrumetmə, məcburi müalicə, uşaq müəssisələri və digər yerlərdə insan hüquqları və azadlıqlarının müdafiəsi haqqında ətraflı məlumat verdi.

## Beynəlxalq əlaqələr

- **Görüşlər**

Ötən illərdə olduğu kimi, 2012-ci ildə Şura beynəlxalq təşkilatlarla əməkdaşlığa böyük önəm vermiş və bu məqsədlə Şura sədri cənab Azay Quliyevin bir sıra beynəlxalq təşkilatların rəhbərləri ilə görüşləri keçirilmişdir.

- 12 yanvar 2012-ci ildə Şurasının sədri Azay Quliyev ABŞ Qeyri-Kommersiya Hüququ üzrə Beynəlxalq Mərkəzin MDB ölkələri üzrə vitse-prezidenti xanım Natali Burjali,
- 07 fevral 2012-ci ildə ABŞ Şərq-Qərb Menecment İnstitutunun prezidenti Adrian Hevrik, institutun vətəndaş cəmiyyəti proqramları üzrə direktoru Delina Fico, Azərbaycanda sosial-iqtisadi inkişaf fəaliyyəti (SEDA) üzrə ölkə direktoru Tim Mədiqan, institutun Bakı nümayəndəliyinin təmsilçisi Ziba Quliyeva və ABŞ Beynəlxalq İnkişaf Agentliyinin demokratiya və idarəetmə üzrə mütəxəssisi Ülvi İsmayıl,
- 09 mart 2012-ci ildə ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) Vaşinqtondan gəlmiş demokratiya üzrə mütəxəssisi Faye Haselkorn, təşkilatın Azərbaycandakı demokratiya ofisinin rəhbəri Naida Zeceviç Bin və inkişafa yardım üzrə mütəxəssisi Kənan Mustafayev,
- 12 mart 2012-ci ildə ölkəmizdə səfərdə olan Türk Hava Qurumunun başkanı Osman Yıldırım və Türk Hava Qurumu Universitetinin rektoru prof. dr. Ünsal Ban,
- 5 aprel 2012-ci Avropa İttifaqı Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumu idarə heyətinin üzvləri,
- 13 aprel 2012-ci ildə ölkəmizdə işgüzar səfərdə olan türkiyəli millət vəkili, Qara dəniz İqtisadi Birliyi Parlamentlər Assambleyasında Türkiyə qrupunun rəhbəri İsmayıl Safi və Avrasiya İqtisadi Əlaqələr Dərnəyinin icraçı direktoru Hikmət Eren,
- 20 aprel 2012-ci ildə Venesiya Komissiyasının ekspertləri – Venesiya Komissiyasının üzvü xanım Veronika Bılkova, Beynəlxalq Qeyri-Hökumət Təşkilatları Konfransının QHT qanunvericiliyi üzrə ekspert şurasının sədri cənab Tsiril Riçi, həmin şuranın üzvü və Azərbaycan üzrə rəyin müəllifi cənab Ceremi Makbrayd, Avropa Şurası Demokratiya Baş Direktoratının vətəndaş cəmiyyəti şöbəsinin müdiri xanım Yuta Gützkov,
- 17 may 2012-ci ildə Sərhədsiz Reportyorlar təşkilatı idarə heyətinin mədəniyyət üzrə məsul təmsilçisi cənab İngo Petz,
- 21 may 2012-ci ildə Norveçin “Morgenbladet” qəzetinin müxbiri Maren Naess Olsen,
- 23 may 2012-ci ildə Azərbaycanda Fəaliyyət Göstərən ABŞ Şirkətləri Palatasının icraçı direktoru Nərgiz Nəsrullayeva-Müdüroğlu və qanunvericilik və siyasi məsələlər üzrə koordinator Şahid Şükürov,
- 25 iyun 2012-ci ildə Yerli Demokratiya Agentlikləri Assosiasiyasının (ALDA) direktoru xanım Antonella Valmorbida,
- 10 iyul 2012-ci ildə Avropa Şurası Məşvərətçi Komitəsinin ekspert qrupu,
- 27 iyul 2012-ci ildə Avropa Qəzetəçilər Dərnəyinin sədri Adnan Fişənglə,
- 18 sentyabr 2012-ci ildə Türkiyənin Beynəlxalq Əsassız Erməni İddiaları ilə Mübarizə Dərnəyinin rəhbəri Göksel Gülbey,
- 11 oktyabr 2012-ci ildə Avropa gənclər təşkilatlarının rəhbərləri,
- 23 oktyabr 2012-ci ildə Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirinin siyasi məsələlər üzrə müşaviri xanım Fanta Orr,
- 13 noyabr 2012-ci ildə Şərq-Qərb İdarəetmə İnstitutu – Azərbaycanda Sosial-İqtisadi İnkişaf Proqramının (SEDA) nümayəndələri Timosi Madiqan, Ziba Quliyeva, Vaqif Həsənov və USAİD demokratiya və idarəçilik layihələrinin icrası üzrə mütəxəssisi Pərviz Musayev və digərləri ilə Şuranın ofisində görüşmüşdür.

Bu görüşlərdə qonaqlara Şuranın yaranması, son illərdə görülmüş işlər, QHT-lərin proqram və layihələrinin dövlət tərəfindən maliyyələşdirilməsi haqqında ətraflı məlumat verilmiş, qarşılıqlı əməkdaşlıq barədə fikir mübadiləsi aparılmışdır.

## Səfərlər

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyev 6 iyun 2012-ci ildə Avropa Şurası və Yerli Demokratiya Qurumları Assosiasiyasının təşkilatçılığı ilə keçirilən beynəlxalq konfransda iştirak etmək üçün İtaliyanın Venesiya-Friuli Giulia regionunda səfərdə olmuşdur. "Fəal vətəndaşlıq və qonşu ölkələrdə yerli demokratiyanın gücləndirilməsi: qazanılmış təcrübə və Cənub-Şərqi Avropadan orta regionlara qədər olan imkanlar" mövzusunda keçirilən bu konfransda Şura sədri vətəndaş cəmiyyəti institutlarının möhkəmləndirilməsi və vətəndaşların ictimai fəaliyyət üzrə təcrübə mübadiləsi imkanlarının genişləndirilməsinin Azərbaycan təcrübəsi haqda məruzə edib. Şura sədri məruzəsində QHT, hökumət, bələdiyyə orqanlarının birgə fəaliyyəti və beynəlxalq əməkdaşlıq sahəsində qazanılmış Azərbaycan təcrübəsini əhatə edərək, ölkəmizin QHT və bələdiyyə mənzərəsi, bu ictimai institutların fəaliyyətini tənzimləyən qanunvericilik bazası, Şuranın məqsədi və strukturu, QHT-lərə və bələdiyyələrə dövlət dəstəyi proqramları çərçivəsində ayrılan maliyyə yardımı və başqa məsələlərə toxunub. A.Quliyev QHT-bələdiyyə əməkdaşlığının daha da gücləndirilməsi üçün bu sahədə strategiya sənədinin hazırlanması, beynəlxalq təcrübə və informasiya mübadiləsinin aparılması, birgə qrant müsabiqələrinin elan edilməsi və bu əməkdaşlığa özəl sektorun dəstəyinin təmin edilməsi təklifləri ilə çıxış edib. Şura sədri, həmçinin, QHT-lərin dövlət büdcəsindən maliyyələşdirilməsinin Azərbaycan təcrübəsinin müvafiq Avropa qurumlarının beynəlxalq forumlarında ən yaxşı təcrübə kimi dəyərləndirildiyini diqqətə çatdırıb.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının yaradılmasının 20 illiyi münasibətilə üzv ölkə rəhbərlərinin iştirakı ilə iyunun 26-da İstanbulda yubiley toplantısı keçirilmişdir. Tədbir çərçivəsində düzənlənən QHT Forumunda ölkəmizi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyevin rəhbərliyilə nümayəndə heyəti təmsil etmişdir. Şura sədri A.Quliyev Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələrinin QHT Forumunun yaradılması və bu struktur daxilində qeyri-hökumət təşkilatlarının fəaliyyətinin tənzimlənməsi təşəbbüsü ilə çıxış edib. Təklif iştirakçı dövlətlərin nümayəndələri tərəfindən bəyənilib. QHT Forumunun təsis konfransının hazırlanması Türkiyə Böyük Millət Məclisinin üzvü, Qara Dəniz İqtisadi Birliyi Parlamentlər Assambleyasında Türkiyə qrupunun rəhbəri cənab İsmayıl Safiyə həvalə edilib.

15-16 oktyabr 2012-ci il tarixdə Şura sədrinin rəhbərliyi ilə Şuranın nümayəndə heyəti Çexiya Respublikasında işgüzar səfərdə olmuşdur. Səfərin məqsədi vətəndaş cəmiyyətinin inkişafı sahəsində Çexiya Respublikasının qazandığı təcrübə ilə yaxından tanış olmaq və qarşılıqlı əməkdaşlıq əlaqələri qurmaqdan ibarət olmuşdur.

Səfər çərçivəsində Çexiya Respublikasının müvafiq hökumət strukturları, eləcə də qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə səmərəli görüşlər keçirilmişdir. Çexiya Respublikasının Hökumət Evinin İnsan Haqları üzrə dövlət komissarı, insan haqları sektorunun direktoru Monika Simunkova, Çexiya Respublikasının Hökumət Evinin Qeyri-Kommersiya Təşkilatları üzrə Dövlət Şurasının katibliyinin departament rəhbəri Hana Fristenska ilə keçirilən görüşdə insan haqları sahəsində Çexiya hökumətinin həyata keçirdiyi tədbirlər və bu sahədə vətəndaş cəmiyyəti təşkilatları ilə aparılan işlər, vətəndaş cəmiyyətinin inkişafını dəstəkləyən proqramların icrası, dövlət büdcəsindən vətəndaş cəmiyyətinin inkişafına yönəlmiş proqramlara vəsaitlərin ayrılması üzrə standartlar və qaydalar, qeyri-hökumət təşkilatları ilə müxtəlif

nazirliklərin və dövlət idarələrinin əməkdaşlığı, QHT-lərə tətbiq olunan vergi güzəştləri barədə nümayəndə heyətinə məlumatlar verildi.

"İctimai Faydalı Təşkilatlar" Assosiasiyasının prezidenti Marek Sedivlə keçirilən görüşdə nümayəndə heyətimizə bu tipli təşkilatlar və qurumlar, onların müəyyənləşdirilməsi qaydaları, bu təşkilatların həyata keçirdiyi sosial sifarişlər, "ictimai faydalı təşkilatlar"la bağlı konsepsiya və qanunvericilik sənədləri barədə ətraflı məlumat verildi.

Çexiya Parlamenti Nəzarət Komitəsinin sədri Boytex Filiplə keçirilən görüşdə vətəndaş cəmiyyəti təmsilçilərinin ölkələrarası əməkdaşlıq məsələləri, ATƏT, Avropa İttifaqı və Avropa Şurasında təmsil olunan parlamentarilər arasında əməkdaşlıq məsələləri geniş müzakirə edildi.

Çexiya Respublikasında keçirilən bütün görüşlərdə Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğu, Avropa Qonşuluq Siyasəti Proqramı sahəsində görülən işlər və bütövlükdə ölkəmiz haqda geniş məlumatlar verilmişdir.

18-21 noyabr 2012-ci il tarixdə Şura sədri Azay Quliyevin rəhbərliyi ilə Şuranın nümayəndə heyəti Rusiya Federasiyası İctimai Palatasının dəvətilə Moskvada səfərdə olmuşdur. Səfərin məqsədi Şura ilə İctimai Palata arasında əməkdaşlıq əlaqələrinin yaradılmasından ibarət olmuşdur. Nümayəndə heyəti 20 noyabr 2012-ci ildə Moskvada Rusiya Federasiyası İctimai Palata sədrinin birinci müavini Mixail Vladimiroviç Ostrovskinin başçılıq etdiyi Palatanın idarə heyətinin üzvləri ilə görüşmüşdür. Görüşdə iki ölkə vətəndaş cəmiyyəti institutlarının keçdiyi mərhələlər, milli, regional və yerli səviyyələrdə ictimai nəzarətin təşkili, vətəndaş cəmiyyəti qurumlarının ikitərəfli münasibətlərin inkişafına, inteqrasiya proseslərinə və regionda sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə töhfəsi, vətəndaş cəmiyyəti qurumları arasında əməkdaşlığın perspektivləri və 2013-cü ildə Azərbaycan və Rusiya birgə əməkdaşlıq layihələri barədə geniş fikir mübadiləsi aparılmışdır.

M.V.Ostrovski və İctimai Palata üzvləri Abramov S.A., Diskin İ,Y., Sokolov A.V., Albakova F.Y., Pşixaçev Ş.A. İctimai Palatanın bu məsələlərlə bağlı fəaliyyəti, eləcə də ikitərəfli əməkdaşlığın perspektivləri barədə məlumat vermişlər. Nümayəndə heyətimiz iki ölkənin vətəndaş cəmiyyətləri arasında əməkdaşlıqla bağlı konkret təkliflər paketini İctimai Palatanın rəhbərliyinə təqdim etmişdir. Səfərin nəticəsi olaraq, əməkdaşlıqla bağlı sənədlər hazırlanır və iki qurum arasında dialoq davam edir.

## • Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Ölkələri Qeyri-Hökumət Təşkilatlarının I Forumu

**27 noyabr 2012-ci ildə** Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının təşkilatçılığı ilə Bakıda Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Ölkələri Qeyri-Hökumət Təşkilatlarının I Forumu (təsis yığıncağı) keçirildi.

Forumun yaradılması üçün keçirilən təsis yığıncağında on bir ölkənin - Albaniya, Azərbaycan, Bolqarıstan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Serbiya, Türkiyə, Ukrayna, Yunanıstanın nüfuzlu QHT-lərinin rəhbərləri, Azərbaycanda fəaliyyət göstərən beynəlxalq təşkilatların və diplomatik korpusun təmsilçiləri, yerli hökumət rəsmiləri və QHT nümayəndələri iştirak etdilər. Forumun təşkilində məqsəd quruma üzv ölkələrin qeyri-hökumət təşkilatları arasında əməkdaşlıq əlaqələrinin koordinasiya edilməsi, regionda reallaşdırılan layihələrə ictimai dəstək verilməsi, qarşılıqlı əməkdaşlığa, münaqişələrin aradan qaldırılması təşəbbüslərinə vətəndaş cəmiyyəti institutlarının potensialının səfərbər edilməsidir.

Prezident Administrasiyası xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin Forum iştirakçılarına müraciətini səsləndirdi. Toplantıda iştirak edən Milli Məclis sədrinin müavini xanım Bahar Muradova Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Ölkələri Qeyri-Hökumət Təşkilatlarının əməkdaşlığına

Azərbaycan hakimiyyətinin bütün səviyyələrində, o cümlədən parlament səviyyəsində də dəstək veriləcəyini vurğuladı.

Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasında Türkiyə nümayəndə heyətinin rəhbəri, millət vəkili İsmayıl Safı toplantının əhəmiyyətini qeyd edərək, region QHT-lərinin əməkdaşlığı üçün ilk addımların atılmasının vacibliyini bildirdi. Forumun Nizamnaməsinin müzakirəsində çıxış edən Rusiya nümayəndəsi Markov S.A., Ukrayna nümayəndəsi İ.Slobodianik, Türkiyə nümayəndələri İ.Safı və H.Eren, Rumıniya nümayəndəsi D.S.Manuela, Serbiya nümayəndəsi M.Diordjeviç, Azərbaycan QHT-lərinin rəhbərləri R.Nurullayev, R,Zeyni, U.Rəhimoğlu və başqaları sənədə öz qeyd və təkliflərini bildirdilər. Beləliklə, Forum təsis edildi və Nizamnamə qeyd və təkliflər nəzərə alınmaqla qəbul olundu.

Nümayəndələrin ümumi səsverməsilə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyev Forumun sədri seçildi. Forumun fəaliyyətinin planlaşdırılması üçün növbəti toplantının 2013-cü ildə Ankara şəhərində keçirilməsi qərara alındı. Forum iştirakçıları toplantının yekunu olaraq, yekdilliklə Bakı Bəyannaməsini qəbul etdilər. Bəyannamə toplantında iştirak edən ölkələrin QHT rəhbərləri tərəfindən imzalandı.

- ## Tərəfdaşlıq

Amerika Birləşmiş Ştatlarında çıxan “Qeyri-kommersiya hüququ üzrə beynəlxalq jurnal”da Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının fəaliyyətini əks etdirən məqalə dərc olunmuşdur. (http://www.icnl.org/research/journal/vol14iss1/art_2.html)

Şuranın 3 illik fəaliyyətinə həsr olunmuş məqalədə Azərbaycan QHT sektorunun inkişafında yeni mərhələnin başlanğıcı olaraq QHT-lərə Dövlət Dəstəyi Şurasının yaradılmasını şərtləndirən amillər, QHT-lərin dövlət büdcəsindən maliyyələşdirilməsində qazanılmış təcrübə hərtərəfli təhlil edilib. Məqalədə Şuranın yaradılmasını zəruri edən məsələlərlə yanaşı bu sahədə mövcud olan beynəlxalq təcrübənin də diqqətlə öyrənildiyi və nəzərə alındığı bildirilir. Həmçinin, az bir zaman kəsiyində QHT-lərin dövlət büdcəsindən maliyyələşdirməsi prosesində Şuranın əldə etdiyi nailiyyətlərin müvafiq beynəlxalq qurumlar tərəfindən ən yaxşı təcrübə kimi qeyd edildiyi vurğulanır. “Qeyri-kommersiya hüququ üzrə beynəlxalq jurnal”da dərc olunan məqalələr ABŞ hökumət dairələri, Venesiya Komissiyasının ictimai sektor üzrə ekspertləri tərəfindən diqqətlə izlənilir. Sevindirici haldır ki, ölkəmizdə QHT sektorunun inkişafını və QHT-lərin dövlət büdcəsindən uğurla maliyyələşdirilməsini təşviq edən belə bir məqalə məhz ABŞ-da işıq görmüş və beynəlxalq ictimaiyyətin diqqətini cəlb etmişdir.

# Yekun

2012-ci ildə Şura Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyasından irəli gələn məsələlərin həlli istiqamətində fəaliyyət göstərməklə ölkəmizdə vətəndaş cəmiyyətinin möhkəmləndirilməsi işinə öz töhfəsini vermişdir. Növbəti illərdə Şura, milli QHT-lərin idarəçilik təcrübəsinin zənginləşdirilməsini, beynəlxalq tərəfdaşlarla birgə əməkdaşlığın davam etdirilməsini, habelə QHT fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması üçün hazırlanmış QHT standartlarının təkmilləşdirilməsi, QHT-lərin inkişafı üzrə Milli Fəaliyyət Proqramı üzərində işlərin başa çatdırılmasını, QHT-lə\r üçün elektron xidmətlərin təşkili, vətəndaş cəmiyyətinin gücləndirilməsi üçün milli strategiyanın və fəaliyyət planının hazırlanması və digər bu kimi vacib məsələlərin reallaşdırılmasını nəzərdə tutur.